# ... kiçik insanların da inqilabı olur

**May ayının 23-ü çağdaş Azərbaycan şeirinin layiqli təmsilçilərindən olan Vaqif Bəhmənlinin doğum günüdür. Bunu nəzərə alaraq jurnalist Elmin Nurinin Modern.az saytı üçün hazırladığı və ilk dəfə orada yayınlanmış son dərəcə səmimi yazısını nəşr edir və gözəl şairimizin həyat hekayətinin oxucular tərəfindən rəğbətlə qarşılanacağına inanırıq. Eyni zamanda fürsətdən istifadə edib Vaqif Bəhmənlini ad günü və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbiyyat mükafatına layiq görülməsi münasibətilə təbrik edirik.**

### *Anam ağac*

- Azərbaycanın kifayət qədər böyük və qədim obalarından birində, Araz qırağında yerləşən Böyük Bəhmənli kəndində doğulmuşam. Bizim Füzuli rayonunda iki Bəhmənli var: Bala Bəhmənli və Böyük Bəhmənli. Əslində, eyni camaatdı, zarafatca, belə də - bir millət iki dövlət... Arazın 1 kilometrliyində yaşasaq da, biz o yanlardan axan suyun səsini eşidir, oradan əsən mehi hiss edir, amma heç vədə o çayın üzünü görə bilmirik. Çünki çayla kəndin arasından sərhəd məftilləri keçir. Biz həmən neytral zonaya "ada" deyirik. Bu, bəlkə də fəlakətdir, siyasətin coğrafi anlayışa təcavüzüdür; axı ada olmaq üçün torpaq ərazisinin gərək dörd tərəfini də su bürüyə. Bunun isə cəmi bir tərəfi sudur, üç tərəfi tikanlı məftil.

Orada, mənim obalarımda adamlar əkinləri İranla müştərək platinanın (su bəndi) hesabına Araz suyu ilə suvarırlar. O ki qaldı Arazı üzbəsurət görməyə, bunun üçün gərək, İmişliyə, Bəhrəmtəpə deyilən yerə gedəsən. Araz yalnız orda, bizim kənddən 60 kilometr aralıda tikanlı məftil qəfəsindən xilas olur. Bəhmənli Aran kəndidir. Di gəl ki, düzənlikdə yerləşsə də, kənddən baxanda Şuşanın dağları görünür. O dağların adı var - Kirs, Ərgünəş, Mengələnata... Biz cəminə Şuşanın dağları deyirik. Necə ki, Xan əmi oxuyur ha: "Şuşanın dağları başı dumanlı...". Kəndə soyuqlar düşəndə bilirdik ki, Qarabağın dağlarına qar yağıb. Cənubda isə Qaradağ dağlarına qar yağdımı, bax onda elə bil yay vaxtı başına od ələnən kəndi qoyurlar nəhəng bir buz dolabının içinə!

Şəxsi həyatımla əlaqədar kəndim haqqında nəyi desəm, təzə olmayacaq. Təəssüratlarımın, deyəcəklərimin əksəriyyəti mənim yazılarımda var. Bir vaxtlar "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə ilə həmən həmin jurnal üşün ətraflı bir söhbət elədik. İntiqam bu söhbət əsasında hazırladığı yazının adını belə qoymuşdu: "Doğulduğu günü xatırlayan adam".

Anam danışardı ki, sən (yəni mən) adına "civir mərək" dediyimiz suvaqlı, amma çox səliqəli, təmiz-tarıq bir daxmada doğulmusan. Həmin mərəyin yanında tut ağacı bitmişdi. Sonralar ağlım kəsməyə başlayanda "civir mərək" də dururdu, tut ağacı da. Tut ağacının qol-qanadı uzanıb mərəyin pəncərəsindən içəri keçmişdi. Bir şeirim var: tut ağacına deyirəm ki, "sən məni anamdan da yaxşı tanıyırsan. Çünki məni doğanda anam can hayında imiş, qara qazanda isti su gətirən arvadların da başı qarışıqmış. Sən hər şeyi - dünyaya necə gəldiyimi, daha sonra necə oğul olduğumu görmüsən". Şeir lap sonda bu arzuyla bitir:

**Ötüb aradan illər**
**Bir günəvərli gündə**
**əyləşib dibində,**
**vurmuşam tut arağından,**
**üstümə kölgə düşür yarpağından...**
**Anamdan çox sevirəm səni,**
**Aramızda bunca**
**doğmalıq nədi,**
**tut ağacı?**

**Girib gen ağızlı qara koğuşuna**
**orda qalmaq istəyirəm əbədi,**
**tut ağacı...**

### *İlk inqilab*

- Dəhşətli dərəcədə qaynar, nadinc uşaq olmuşam. Dinclik bilmədən ora-bura qaçar, elə hey oxuyar, sözləri bir-birinə yaraşdırardım. Rəhmətlik Qəbil babam deyərdi: - A bala, sən niyə bu qədər danışır, kəsik baş kimi ətirsən.Əlbəttə, mən anlamırdım ki, kəsik baş nədir və o niyə, necə ətir...

Ailədə doqquz uşaq idik; dörd qardaş, beş bacı. Çox istənilən uşaq olmuşam. Dördüncü sinfə qədər əla xəttim olsa da, dərslərimi bir o qədər də yaxşı oxumamışam. Beşinci sinifdən sonra məktəb həyatımda sanki inqilab oldu - kiçik insanların da inqilabı olur - mən çox sürətlə yaxşı oxumağa, bütün dərslərdən "əla" qiymətlər almağa başladım. Orta məktəbi bitirəndə attestatdakı bütün qiymətlərim "5" idi. Həndəsə, fizika, cəbr kimi fənlərdə bəzi düsturları məndən yuxarı sinifdə oxuyanlar, ən çox da onuncular həll edə bilməyəndə müəllim məni həmin siniflərə "qastrola çıxarıb" deyirdi ki, "indi sən həll elə, bu uzundrazlar bəlkə, xəcalət çəkib yerə girələr".

Daha sonra müəllim mənə riyaziyyata, həndəsəyə dair başqa suallar da verirdi. Cavabları bülbül kimi ötürdüm. Müəllim 10-cuların zəif oxuyanlarını boya-boy lövhə qabağına düzürdü. Ürəyimdə qorxurdum, deyirdim ki, çölə çıxan kimi bu yekə oğlanlar mənim boğazımı sərçə boğazı kimi üzəcəklər.

### *Sözə aparan yol*

- Bir müəllimim vardı, adı Firdovsi idi. Seyidəhmədli kəndindən gəlmişdi. İndi o kənd, demək olar ki, erməni işğalındadı. Bizə riyaziyyatdan, həndəsədən dərs deyirdi, amma ədəbiyyatı çox gözəl bilirdi. İlk dəfə mənə Rəşad Nuri Güntəkinin "Çalıquşu" və Mayn Ridin "Başsız atlı" romanlarının sadəcə adlarını nişan verdi. İndi unutmuşam, həmin əsərləri hansı yollsa elə keçirtdim. Təxminən, 6-7-ci siniflərdə oxuyurdum. Mən o romanların hərəsini üç sutkanın içində oxuyub bir həftədən sonra oldum kitab ölüsü.

Sonra məktəbimizə qonşu Yağlıvənd kəndindən Həkimxan müəllim gəldi. O da riyaziyyatdan dərs deyirdi. Amma o da mənimlə ədəbiyyatdan danışırdı. Maraqlı insan idi, Həkimxan müəllim...

İndinin özündə də məndə məktəb illərindən bir adət qalıb: çətin işlərin əsas yerlərini asanlıqla düzüb-qoşuram, ən sonda "ilişirəm". Orta məktəbdə, riyaziyyat dərslərində də elə idi; mürəkkəb tənlikləri həll edirdim. Amma sonuncu sadə əməliyyatı yerinə yetirə bilmirdim. Niyə? Təsəvvür eləyin, tutaq ki, çətin düsturu həll etmişəm, sonda altını yeddiyə vurmaq lazımdı ki, cavabı mexaniki olaraq yerinə qoyasan. Bax, onu edə bilmirdim. Vurma cədvəlini bəlkə, indi də səlis bilmirəm... Gözümü döyə-döyə çaşıb duruxduğum anlarda Həkimxan müəllim boynumun üstünü kəsdirib tələb edərdi ki, cavabı dərhal yazım. Deyirdi, bəyəm bilmirsən, altını yeddiyə vuranda neçə edir?! Mən də hər şeyi həll eləmişəm. Deyə də bilmirəm ki, altını yeddiyə vuranda neçə edir, onu bilmirəm. Amma qismətim məni necə



olur-olsun vəziyyətdən çıxarıb həmişə. O boyda məktəb sona qədər bilmədi ki, mən vurma cədvəlini bilmirəm.

### *İki qadın, bir qoca kişi*

- Atamızı çox erkən itirmişik, 37 yaşında dünyadan köçdü. 33 yaşlı qadının, yəni anamın umuduna 9 uşaq qaldı. Amma bizim də, anamızın da arxalandığımız böyük qüvvə var idi: bəy qızı, çox gözəl qadın olan nənəm, Maşad Səfəralı qızı Dilbər və babam Həsənqulu oğlu Qəbil... Anam çox zəhmətkeş qadın olub. Bir an da olsa, eyni yerdə dayanmırdı. Həm məktəbdə xidmətçilik edir, həm həyət-bacada işləyirdi. Çox işləməkdən cavan qadın kösöv kimi qaralmışdı. Allah hər üçünə rəhmət eləsin. Babama, anama və nənəmə...Bir qoca kişi, iki qadın - 9 uşağı böyük əziyyətlə böyütdü. Biz hamımız onların sayəsində ev-eşik sahibi olduq.

### *"Qızıllı" Dilbər anamın qızıl sözləri*

- Nənəmin çoxlu qızılları olub. Gözümün qabağında, qapımızda xüsusi tərəzi ilə qızıl çəkiblər. O tərəzinin dönə-dönə dolub-boşaldığını görmüşəm.

Ümumiyyətlə, bəhmənlilərdə qohumluq bağlılığı çox möhkəm olub. Nənəm qohum toylarının hamısında iştirak edər, səbəbkarlara bahalı qızıllardan düzəldilən əşyaları qızırqanmadan hədiyyə verərdi. Mən universitetə girəndə camaat düşünürdü ki, yəqin, nənəsinin qızılları hesabına daxil olub məktəbə. Halbuki, mən birinci il müsabiqədən keçməyib Şin zavodunda fəhlə işləmişdim.

Söz düşdü, o barədə də deyim. Sənədlərimi Şərqşünaslıq fakültəsinə vermişdim. İstəyirdim şərqşünas olam. Dedim axı, kəndimiz İran sərhəddindədi. Hər axşam oranın radio dalğalarını tuturduq. Qəribə ovqatlı, əruz vəznli şeirləri dinləyirdik. Şərq musiqisinin sədaları altında yarıfars, yarıazərbaycanca ( o zamanlar dilimizin türk dili olduğunu bizə demək olar ki, unutdurmuşdular və bu barədə bizim təsəvvürümüz belə yox idi) şeirlər deyilərdi. O zaman sanki bütün dünya ayaqlarımın altından qaçardı. Məni Şərqşünaqlıq fakültəsinə də bu romantika həvəsləndirmişdi. Amma ora daxil olmaq mümkün deyildi. İmtahan verdiyim il fars şöbəsinə cəmi 9 nəfər qəbul olundu. İmtananlardan "dörd" və "beş" qiymətlər alsam da, o 9 nəfərdən biri ola bilmədim. Amma növbəti il Jurnalistika fakültəsinə sənəd verib, elə həmin qiymətlərlə ali məktəbə daxil oldum.

Yaxşı oxumağa, çox çalışmağa bir növ, məhkum idik. Çünki gözümüzün qarşısında çəkilən ağır zəhməti anlayırdıq. Mən oxuyan vaxtlarda evdəkilərdən kimsə gedib nənəmə deyəndə ki, evdə un qurtarıb, pul ver, un alaq - bilirdilər ki, nənəmin sandığı hər zaman ehtiyatlı, tədarüklü olur - nənəmsə deyərdi ki, "bax, hələ ağaclar yarpağını tökməyib. Gedin, xəzəl yeyin, pulu Vaqifə göndərəjəm". Bax beləcə, mənim aylıq 50 manatımı hər zaman vaxtında göndərərdi. 50 manat da universitetdən təqaüd alırdım. Amma üçüncü kursdan sonra radioda yazılar yazmağa başladım. Ondan sonra evdən pul istəmədim. Çünki 200-300 manat qonorar alıb yaşayırdım. Yeri gəlmişkən, bizim Bəhmənlidə qadına, anaya hər zaman böyük hörmət olub. Gözümüzü açandan hər evdə, hər yerdə belə görmüşük. Məsələn, hərdən eşidərdik ki, başqa yerlərdə qadını döyüblər, filan. Amma kəndimizdə heç vaxt belə bir işin şahidi olmamışıq. Bizlərdə qadına hər zaman yüksək səviyyədə hörmət olub. Hərdən də, bütün sevgilər, münasibətlər qarşılıqlıdı. Sən görürsən ki, ana ömrünü sənə qurban edir, yolunda şam kimi əriyir. Onu necə sevməmək olar?! Amma istədik-istəmədik, həyatın reallıqları başqadı. Hərdən fərqli şeylər də eşidir, şahidi oluruq. Televiziyada, kinoda, həyatda bəzən, ananın övlada laqeydliyindən danışırlar. Onlar gerçək olsa da, mən yenə də inanmıram. Çünki kəndimizdə və ən əsası bizim evdə elə olmayıb. Bunları elə-belədən demədim. Gərək, gələcəkdə anaya aid yazdığım bütün şeirləri yığıb ayrıca bir kitab buraxam. Anam və kənddəki başqa analar elə qeyrətli qadınlar olublar ki, onların xatirəsini heç zaman unuda bilmərik. Anamla yalnız o bir az yaşa dolandan sonra yaxın ünsiyyət qurmağa başladım. Amma uşaq vaxtı onunla bir qabdan xörək yeməyə də utanardım. O özü də buna məəttəl qalardı. Bir də görürdün ki, anam qayğanaq bişirib. Boşqabın bir tərəfindən o, bir tərəfdən mən dadıram. Vaqif Bayatlı bir şeirində yazır: "Balalar yedikcə, analar doyar". O elə çörəyi yalandan tavanın qırağına sürtürdü ki, mən doyunca yeyim. Buna baxmayaraq, anamla aramızda hər zaman qalın pərdə olub. Kimisə müəllim, kimisə kitab öyrədir. Amma mənim birinci müəllimim anam olub. Çoxlu şeirlər bilirdi. Sabiri əzbərdən deyərdi. Nizami Gəncəvinin azərbaycan dilinə tərcümə olunmuş qəzəllərinin hamısını əzbər söyləyirdi:

**Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi,**
**Üzü Aydan da gözəl nazlı nigar gəlmiş idi...**

Təkcə ondan yox, xalq bayatılarından tutmuş Süleyman Rüstəmə qədər, hamıdan əzbər deyərdi. Nağıl söylərkən, çox gözəl improvizə etmək qabiliyyəti vardı. Onun xüsusi məharətlə danışdığı nağılları gülmədən dinləmək mümkün deyildi. Elə məndəki yumor hissi də anamdan, onun danışdığı baməzə nağıllardan gəlmədi. Anam alt evimizdə bacılarımla yatıb-dururdu. Biz üç oğlan uşağı isə nənəm-babamla birgə üst otaqda məskən salmışdıq. Anamın nağıl gecəsi başlayan zaman döşəmənin aralı yerindən qulağımı dirəyib onun danışığını dinlərdim. Amma bəzən gizli, bəzən aşkar alt evə, onların yanına soxulub, anamdan xahiş edərdim ki, nağıl danışsın. Anam məktəbdə işləyirdi. Sinifləri xadimələrin arasında bölüşdürəndə kitabxananı yığışdırmaq anamın payına düşmüşdü. Oranı hamı çıxıb gedəndən sonra yığışdırırdı. İndi fikirləşirəm ki, o kitabxanada olsa-olsa 500 kitab ancaq olardı. Amma o zaman mənə elə gəlirdi ki, orada bizim Milli Kitabxanadakı qədər kitablar var. Onlara nə toxunmaq, nə də evə aparmaq olardı. Anam kitabxananı təmizlədiyi müddətdə demək olar, kitabların hamısına əlimi vurar, adlarını oxuyardım, bir sözlə, onlarla tanış olardım. Dördüncü sinfə qədər höccələyib oxuyurdum. Kitabxanaçı Ənvər müəllim (sonralar ədəbiyyatdan dərs deyirdi) "Koroğlu" dastanını elə sürətlə oxuyurdu ki, ona həsədlə baxardım. Ənvər müəllimə qeyd etdirib evə gətirdiyimiz kitabları əvvəlcə anam oxuyardı. Sonra qardaşım Qalibə ötürərdi ki, davam etsin. Qalibdən sonra mən də oxumaq istərdim. Dastanı, nağılı şeir kimi oxuyurdum. Elə başlayan kimi hamı durub dağılışırdı ki, sən pis oxuyursan. Sanki şeir səsləndirirmiş kimi kitab oxuyardım. Görünür, insanın içindəki kod lap körpəlikdən onun janrının dilində danışır.

### *Əlvida, "bostan dostları"*

- Orta məktəb "vinetka"mız indi də qalır... Beşinci sinifdən etibarən, yaxşı oxumağa başladım. Ondan sonra bostan oğrusu olan dostlarım mənimlə gec düşdülər. Həə, bir az da onlardan danışım. "Bostan dostları"mızla başqa yerdən yox, elə öz həyət-bacamızdan nəsə çırpışdırırdıq. Rəhmətlik Dilbər nənəm deyərdi ki, ay bala, "qoy meyvə yetişsin, yenə siz yeyəcəksiz də. Ya da satıb, pulunu özünüz xərcləyəcəksiz". Qulaq asmırdım. Əriyin yetişən vaxtı uşaqları yığıb xüsusi üsulla düzəldilmiş çətin qamış səddi adlayandan sonra bağa girirdik.

Bir söz var, deyir ki, bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır. Uşaq vaxtı yaşanan bəzi hadisələr o zaman mənə əzab kimi gəlirdisə, indi onları gülə-gülə xatırlayıram. Beşinci sinifdən etibarən yaxşı oxumağa başlayanda həmin "bostan yoldaşlarım" məni qısqanmağa başladılar. Mənə qarşı bir dəstə düzəltdilər, hamısı da əmioğlum, xalaoğlum... Beşaltı uşaq hər gün dərsdən çıxandan sonra qarşımı kəsib mənimlə dalaşmaq istəyirdi.

Bir dəfə lap gerçəkdən vuruşduq; mən bunlara, bunlar mənə... Axırda palçığa yıxıldım. Hirsimdən ağlayaraq evə qayıdıb dedim ki, daha dərsə getməyəcəm. "Nədi", "nə olub",- deyə soruşsalar da heç nəyi boynuma almadım. Bilirdim ki, babam bilsə, onların atasını yandırar; çox hökmlü kişi idi. Elə özözümə fikirləşirdim ki, mənim nə günahım var, dərsimi oxuyuram da... Sən oxumursan, cəhənnəmə oxu, indi vurub öldürəcəksən məni?! Uşaq yaxşı oxuyanda qızlar onunla maraqlanmağa, böyüklər daha çox istəməyə başlayır axı. Onlar da artıq moddan düşürdülər. Yəqin, bunun da təsiri var idi.

**(ardı 8-ci səhifədə)**

(əvvəli 5-ci səhifədə)

### *Bir dəfə də...*

- ...dəmir yolunun kənarı ilə gedirəm. Heç nədən də xəbərim yox. Bir kəndçimiz var, Bakıda yaşayırdı, onun ev-eşiyinə, bağ-bağatına ağsaqqal bir qohumu baxırdı. Bir də gördüm bu, qəfil qabağıma çıxıb başladı, nə başladı: "Ölmürsən, utanmırsan...". Başa düşmürəm ki, nə olub, dilim batıb. Hannan-hana soruşuram ki, nə olub? Mənə cavab verməyib, gileyinə davam edir. Qəfil hönkürtü ilə ağlamağa başladım. Onda kişinin özü də pis oldu. Saçımı sığallayıb, üzümdən öpdü. Sən demə, bu məni böyük qardaşımla səhv salıb. Məndən böyük qardaşım bir topa uşaqla bir az əvvəl həmin bağa girib, nə meyvə varsa, hamısını yığışdırıb aparıbmışlar. O da qoca kişi, məni üzdən qardaşıma oxşadıb. Onda anladım ki, böhtan, şər həqiqətən pis şeydi.

### *Dönüşün iki rəngi*

-63 yaşım var. İndinin özündə də bir iş görəndə, düşünürəm ki, görən, bəhmənlilər buna nə deyər? Ömrümü sanki həmin kəndə hesabat verməklə keçirmişəm. Hər zaman deyirəm ki, indi bu hərəkəti edirəm, bu addımı atıram, görən Bəhmənli camaatı buna nə deyər? Yaxşı iş görəndə bilirəm ki, Bəhmənli camaatı bunu eşidib sevinəcək. Ermənilərin çaxır butulkası vardı tut ağacının altında. Evdən heç nə götürməmişdilər, amma nə qədər mebel, qab-qacaq var idisə, hamısını üzüaşağı yerə aşırmışdılar. Sındırıb dağıtmışdılar. Anam demişdi ki, mütləq evə gedərsən. İndi düşünürəm ki, nə edim, anama nə aparım ki, həqiqətən, evimizə baş çəkdiyimə tam inansın. O, axır vaxtlar cəhrə əyirirdi. Həmin cəhrənin darağını, yumağını, bir də başqa bir əşya vardı, onu götürdüm; o zaman hesabdarlarda "çötkə" olardı ha, ondan bir sürtülmüşü də bizdə idi, bax o "çötkə"ni də götürüb anama gətirdim. Çox sevindi. Dedi, evimiz nə təhərdi? Yalandan dedim ki, hər şey qaydasındadı. Komandir dedi, bir halda ki, sənin evin boşdu, mən ora dörd əsgər yerləşdirim. Həm orada qalsınlar, həm də evə nəzarət eləsinlər. Dedi, bala düz eləmisən. Nəzarət elədi-eləmədilər, düz eləmisən. Sonra dedim ki, al bu da sənin yumağın, darağın... Elə bil anama həmin an dünyanı bağışladılar.

### *Son nəfəsin qəhrəmanlığı*

- 2000-ci ildə həmin kənddə böyük qardaşım rəhmətə getdi. Anamın özü 2002-ci ildə dünyasını dəyişdi. Axırıncı dəfə xəstə olanda kəndə gedib, anamı yoluxdum. Həyat yoldaşımla getmişdim. O da, mən də iş adamıyıq. Onun işlədiyi yerdən heç bir gün də icazə vermirdilər. Amma mən lap yekə yerdən xahiş elətdirib ona icazə almışdım. Üç gün kənddə, xəstənin yanında qalıb şəhərə qayıtdıq. Elə təzəcə Bakıya çatmışdıq, zəng edib dedilər ki, vəziyyəti ağırdı, qayıdın. Bir də təzədən qayıtdıq. Arvadın son nəfəsi idi. Amma gözü yol çəkirdi. Yoldaşım gedib başını dizinin üstünə aldı. Mən, açığı yaxınlaşa bilmədim. Dəhşətli əzab hissi keçirirdim. Elə özü soruşdu ki, kimdi gələn? Dedilər, Vaqifdi. Son nəfəsində də dedi ki, nə ürəyi var onun, qoymayın çox yaxınıma gəlsin, yoldan gəlib, gedib əl-üzünə su vursun. Yəni, o dərəcədə bizə qıymırdı. Bunun özü də qəhrəmanlıqdı. İnsan var ki, son nəfəsində çabalayır, qışqırır, nə etdiyini bilmir. Amma anam çox sakit getdi. Şam kimi asta-asta söndü.

### *Yerdəyişmə...*

- 30 il kənddə yaşamışam. Kəndin bir parçası olmuşam. Həyatımda sanki bir yerdəyişmə olub: Əvvəl mən kəndin içində idim, indi kənd mənim içimdədir. Burada, həyətimdə hər cür ağac əkmişəm. Buranın da narı, incili, alması, üzümü var. Amma onlar kəndin meyvəsinin yerini verə bilməz axı. Ərik alırıq, dadı yox. Amma bizim kənddə, qapımızdakı əriyi heç yerdə tapa bilməzdin. Kəndimizdə bişən kələm, tənək dolmasını mən heç harda yeməmişəm. Mənim üçün dünyanın ən dadlı, ən ləziz yeməyidir. Nənəmin bişirdiyi göy kətəsindən dadlı nə vardı ki?! Ya bəlkə, indi mənim ağzımın dadı qalmayıb?! Rəhmətlik nənəm nehrələri çalxayıb ayranını qara qazanlara tökərdi. Elə darvazadan girən kimi "itolum- yəni, itin olum,- sən övladı istəməyin həddinə bax e - "indicə nehrəni boşaltmışam, gəl iç" deyib bizi səslərdi. Başımızı qazana əyib doyunca nehrə ayranından içərdik. İndi yağ da, ət də bilmirsən nədir, haradan gəlir. Mənə elə gəlir ki, elə o vaxt yediyimiz qidaların enerjisi xasiyyətimizin yaxşı olmasına gətirib çıxarıb. Bax, o ağartıların özü belə sirrdi. İndi yaş da öz sözünü deyir. İnsan nədir ki - əvvəli də sonu da məlum olan enerji. O yavaş-yavaş, yanıb tükənir. Amma yenə də hansısa xəstəliyə tutulmamağıma görə, hər gün səhər tezdən yataqdan xoş ovqatla qalxdığıma görə, heç vaxt öz işimdən yorulmamağıma görə o kəndə borcluyam. Kənd təkcə ayağımız altındakı, üstündə yeridiyimiz torpaq deyil. O bizə xasiyyət verib, xarakter bəxş edib. Biz də onun verdiklərinin daşıyıcısı olmuşuq.

### *Torpağın bətnindəki səs*

- Kəndimizdə həmişə musiqiyə böyük məhəbbət olub. Yaqub Məmmədov mən uşaq olanda qonşuya toya gəlmişdi. İkimərtəbəli evlərin eyvanı taxtadan olurdu. Müğənni gələndə onu ikinci mərtəbədəki eyvana qaldırırdılar. Gedib orada oturar, xudmani məclis üçün çalıb-oxuyardı. Mən toydan bir gün qabaqkı məclisi deyirəm. Yaqub Məmmədov gələndə Bəhmənli kəndi Əbdül əmimin evinə nə təhər cumdusa, (onun övladlarından birinin toyu idi) qabaqlarını kəsdilər ki, a bala, toy sabahdı hələ, bu eyvan indi uçacaq. Evin o qədər adam götürməyə gücü yox idi. Amma adamların qarşısını da almaq mümkün deyildi. Axırda rəhmətlik Yaqub Məmmədov düşüb həyətə gəldi. Gecə ikən yer düzəldib çıraq yandırdılar. Yaqub Məmmədov orada oxudu. Dayım oğlu var idi, Firdovsi, tez rəhmətə getdi. Onun Cabbar Qaryağdıoğlu səviyyəsində səsi vardı. Onu dostum Seyran Səxavətlə gətirdik rəhmətlik İslam Rzayevin yanına. Oxudu, İslam müəllim zarafatla dedi ki, "manısda səsin sonu yoxdu. Amma buna məktəb lazımdı". O, Mədəni Maarif Texnikumunu bitirmişdi. Bu təbii ki, az idi. Radioda da konsertini təşkil etdik. Amma heyf ki, ondan bircə ağız da olsa, səs yazısı qalmadı. Uşaq idik, qardaşımla çəmənlikdə uzanmışdıq. Radioda Qədir "Sona bülbüllər"i oxuyurdu. Səhv etmirəmsə, onun ilk ifası idi. İkimiz də sanki torpağa qarışdıq. O nə idisə ilahi bir səs idi. Sonradan Qədirin bütün ifaları göstərdi ki, o həqiqətən də qeyri-adi səs sahibidi.

Süleyman Abdullayev, İslam Rzayev kimi sənətkarlar Füzulinin yetirmələridir. Böyük qardaşım hər dəfə onları dinləyəndə zülüm-zülüm ağlayırdı. Mən bu adamın bircə dəfə də olsun, muğama qulaq asanda ağlamadığını görmədim. Çox maraqlı toylarımız keçərdi. Günortadan yemək yeyilər, nəmər salınar, saat 6 olan kimi bütün yemək-içmək yığışdırılardı. Spitli içki verilməzdi. Bir toyda bəlkə sonraki on ailənin təməli qoyulardı. Camaat artıq him-cimdən, kimin kimi rəqsə dəvət etməsindən hər şeyi anlardı. Toylarımızın yaraşığı Ağabala Abdullayev idi. Ovaxt yeniyetmə olan oğlanlarını, Nizomi ilə Rövşəni də özüylə gətirərdi. Daha sonra Bakıdan gələnlər də oxuyardılar.

O toylarda bişirilən yeməklərin dadı da bir ayrı idi. Xanımların, qadın-qızların abırlı geyimi, başa geyilən yaylıqlar onların gözəlliyini on dəfə artırırdı. Çoxlu qızıllar taxardılar. İndi o cür qızıl taxıb küçəyə çıxsan, səni soyarlar.

Novruzdan da danışaq. Yaradıcılığımda Novruz böyük mövzudu. Novruz adətlərinə, fəlsəfəsinə tamamilə yeni münasibət təqdim etmək istəmişəm. Kitablarım var bu mövzuda. Haradasa, 30 şeir və 30 esse, yəni, Novruz haqqında 60 əsər var. "Azərbaycanın xalq bayramı Novruz" kitabımı "Təhsil" Nəşriyyatı çox yüksək səviyyədə hazırladı. O şeirlərim ilk dəfə "Kommunist" qəzetində çıxıb.

Rəhmətlik xalq şairi Nəbi Xəzri zəng edədi ki, heyrətlənmişəm, bu şeirlər necə yazılıb. Novruz qan yaddaşımızdı, damarımızdan axan qandı. Özümüzdən asılı olmayaraq, bayram gələndə içimizdə nələrsə tərpənir. İki ay əvvəlcədən Novruza hazırlaşardıq.

Yadımdadı, Novruzda mənə məxmər pencək tikmişdilər. Hamı təzə və səliqəli geyinməli idi. Biz kənddə "cəvərəncüllüt" deyilən bir alət icad etmişdik. Onu sonradan başqa kəndlərdə görmədim. Xüsusi üsulla hazırlamışdıq ki, kasıb evlərində adətən, pay olaraq verilən qovurğa, orada qalmasın, qarğının yarıqlarından süzülüb yerə tökülsün. Torba da sallaya bilərdik. Amma yox, onu etmirdik. İstəyirdik ki, bizə qovurğa yox, başqa böyük pay verilsin. Gör, nəyi fikirləşmişik e (gülür). Bir dəfə də dəstənin uşaqları mənə dedilər ki, bu dəfə "cəvərəncüllüt"ü sən salla. 11 uşaqlı bir kişinin qapısına "cəvərəncüllüt" salladıq. Kişi heç gözləmədiyimiz halda çölə çıxıb hamımızı evə saldı. Gördük ki, süfrə düzülüb, böyük ailə yemək yeyir. Bizi də süfrəyə təlif elədilər. Qızlarından biri sinif yoldaşım idi. İndi xəcalətdən ölürəm ki, bu nə işdi, düşdük. Səhəri gün həmin qız sinifdə məni "satdı" və Novruz sovqatı olaraq Kəklik müəlliməm məni küncdə saxladı... Yeri gəlmişkən, Novruzun bir ucu gedir qədim Avestaya çıxır. Azərbaycan çox unikal yerdi. Burada yalnız bir mədəniyyət cəmlənməyib. Ona görə də xalqımız bu boyda dahilər yetişdirir. Burada tükənməyən enerji var. Başqa türk məmlətlərində bu potensial, bu enerji, bəlkə də belə qüvvəli teyil. Məncə ordaq mədəniyyətlərimizin nüvəsi burdadı. Mənim bir rəssam dostum var. Deyir ki, "Salvador Dalinin dünyanın yaranışı haqqındakı rəsm əsərindəki əlini uzatdığı yer doğrudan da Azərbaycana oxşayır". Əlini xəritədə Xəzər dənizi yaxınlığındakı Bakının üstünə qoyur. Bu bəlkə də onun fəhmi yox, elmidi. Ali enerjinin haradan yığıldığını bilirmiş. O həmin nəticəyə elmlə gəlib çıxır. Bax belə, dünyada heç bir məsələ sadə deyil. Sadə bir kənd haqqında bayaqdan bəri söylədiklərim əslində həm də insan taleyi və dünya haqqındadır.

# ... kiçik insanların da inqilabı olur



nir. Bizim vaxtımızda universitetə girmək Aya uçmaq kimi bir şey idi. Biz məzun olan ili məktəbi 60-a qədər şagird bitirsə də, yalnız üç-dörd nəfər ali məktəbə daxil oldu. Mən özüm ikinci il qəbul olundum. Kəsilləndən sonra kəndə dönüşümü də çox yaxşı xatırlayıram. Aylı gecəydi... Qatarla qayıtmışdım. Çalışırdım ki, kənd camaatından kimsə məni görməsin. Amma Ayın işıqlandırdığı gecədə hamı, hər şey açıq-aydın görünürdü. Tanış adamların yanından sürətlə keçirdim ki, qoy, heç kim soruşmasın ki, ay bala, getmişdin, bəs, nə təhər oldu, necə keçdi? Çünki hamı bilirdi ki, Bakıya kimlər imtahan verməyə gedib. Bir həftə qapı-bacadan çölə çıxmadım. İlk imtahan sarsıntım belə oldu. Amma qəbul olandan sonrakı ildə kəndə dönüşümü o qədər də yaxşı xatırlamıram.

Hə, qoy bunu deyim: Rəhmətlik babam demişdi ki, əgər universitetə girmisənsə, mütləq qəbul kağızı al gətir. O zaman bir arayış verirdilər ki, həqiqətən də bu adam imtahan verib və daxil olub. Bəzən, imtahan vermək üçün Bakıya gedənlər yalandan deyirdilər ki, qəbul olunmuşuq. Babam da bu səbəbdən dedi ki, mənə "kağız" göstər, inanım. Ali məktəbə qəbul olunmaq haqqında arayışı ona göstərdim... sevindi, gözləri yaşardı.

### *"Kitab nədir, partiyaya keç"*

-Birinci kitabım 1979-cu ildə çıxdı. "Bahar-payız arası" adlanırdı. O kitab çıxanda çox sevinirdik; mən, rəhmətlik Eldar Baxış, Ağacəfər Həsənli, bir də Loğman Rəşidzadə, köhnə bir "Moskviç" tutub o vaxtlar Sabirabadda Kür Su Kəmərinin rəisi işləyən Akif dayımın yanına getdik. Cibimizdə də yaxşı pul var; kitaba görə haradasa, 600 manat qonorar almışam. Kitabı "yumağa" birinci oradan başladıq. Əlbəttə, pul xərcləmədən. Bir gün bizi buraxmadılar. Mən, Eldar Baxış, o birilər də şeirlər dedik. Ondan sonra Bəhmənliyə getdik. Dostları babamla tanış elədim. Dedim ki, baba, kitabım çıxıb. Dedi, kitabı nə edirəm, elə hünərli oğulsan, mənə partiya biletini gətir, deyim hə... (gülür).

### *Yaddaş ağrıları*

- Uşaqlıqdan yaddaş ağrılarına dönən, indi də yeri göynəyən xeyli itkilərin şahidi olmuşam. Atam cavan rəhmətə getdi. Xatırlayıram ki, o öləndə biz uşaqlar necə ağlaşırdıq. Heç birimizin cənazəyə çiynimiz çatmırdı. Bircə böyük qardaşımız, rəhmətlik Arif cənazənin bir küncündən tutdu; o zaman 16 yaşı vardı. Xüsusən də kişilərin atam üçün necə ağladığını indi də unuda bilmirəm. Sən demə, kişi də ağlayarmış... Böyük-böyük kişilər necə də hönkürürdülər...

Dayımın, xalamın itkisi indi də gözümün qabağındadır. Bir də ən çox mənə oxşayan, kiçik bacımdan sonra bir qardaşımız olmuşdu, adı Nazim. Hər hərəkəti ilə, siması ilə məni təkrarlayırdı. 2-3 yaşında qəfildən öldü.

Amma mənim üçün ən ağır itkilər 1992-93-c illərin hadisələri oldu. Onda anam, bacı-qardaşlarım hamısı məcburən doğma yurdu tərk edib Bakıya pənah gətirdilər. Çətinliklə də olsa, onları yerləşdirdik. Anam mənimlə qaldı. O zaman yazıçı Məmməd Orucun radioda "Qərib axşamlar" adlı proqramı vardı, anam haqqında bir veriliş yazmışdı. Bir detalı deyim: hələ vurhavur başlamamış, həmişə anama deyirdim ki, ana, gəlsən, səni Bakıda elə saxlayardım ki. Amma o heç bir halda kənddən çıxmazdı, dəhşətli dərəcədə sevirdi oraları. Əvvəllər dəmiryol vağzalının yanında, indiki 28 May küçəsi ilə Rəşid Behbudovun kəsişməsindəki binada yaşayırdıq. Anam bizə gələndən sonra hər zaman evin dənizə yox, qatar vağzalına baxan eyvanına çıxardı. Gözü yol çəkərdi. Məmməd Oruca bunu danışmışdıq. Radio-oçerkini də belə bitirirdi: "Nə qədər ağır olsa da, Vaqifə gözaydınlığı vermək istəyirəm. Hey deyirdi ki, anası gəlib onunla yaşasın. İndi budur anası şairin yanında qalır".

### *Dünyanın ən kədərli hədiyyəsi*

- 1994-cü ildə Azərbaycan televiziyası ziyalılardan ibarət bir qrupla əsgərlərin görüşünü təşkil etdi. Ermənilər o vaxta qədər artıq Bəhmənliyə girib-çıxmışdılar. 1994-cü ilin aprel-mart aylarında 23 kənd azad edilmişdi, amma yenə də bizimkilər kəndə adam buraxmırdılar. Lap kəndin öz sakini də gedəndə, onları tutub xüsusi təcridxanada saxlayırdılar. Həmin ərəfədə biz ora gəldik. Arif Babayev, Sabir Əhmədli, Qəndab Quliyeva və başqa sənətkarlar, ziyalılar da qonaqların arasında idi. "Qara polkovnik" kimi tanınan Fətulla Hüseynova dedim ki, buraliyam. Dedi, nə yaxşı, sizin üçün nə edə bilərik? Dedim, gələndə gördük ki, haradasa, 10 adamı tutub təcridxanaya saldılar. Birincisi, onları buraxdıraq. Dedi, heç problemi yoxdu. Əlavə etdim ki, kəndə adam buraxmırlar, istəyirəm öz evimizə da baş çəkim. Mənə əsgər və maşın verib kəndə göndərdilər. Getdim, yanımdakı zabit saxlanılan adamlara işarə edərək başqa bir zabitə dedi ki, bu adamları buraxın. Hansı ki, bizdən əvvəl ora getməyə cəhd etdikləri üçün xüsusi yerdə saxlanılmışdılar. Hamısı sevinişdilər. Biri pivə zavodunda sex rəisi idi. Gələndən sonra üç yeşik pivə göndərdi ki, məni sən türmədən buraxdırmısan.

Nə isə, evimizə getdim. Gördüm ki, ot basıb, əncir vaxtıydı, yekə-yekə əncirlərin hamısı yerə tökülmüşdü. Həyətə girən kimi bildim ki, erməni bu qapıya da soxulub. Çünki erməni markalı siqaretləri çəkib kötüklərini yerə atmışdılar.

*Vaqif Bəhmənli*

### *Tanrıdan xahiş*

**Tanrım, günahımdan keç,**
**hesab et ağıldankəm...**
**Öləndən sonra da heç**
**mən ölmək istəmirəm!**

**Yolunu keçdim çətin,**
**dar quyu oyma mənə,**
**Altmış illik zəhmətin**
**hayıfdı, qıyma mənə.**

**Çevir, başına çevir;**
**yox olmaq istəmirəm.**
**Hökm et, ruhumu devir,**
**ruh olmaq istəmirəm.**

**Yerimi böyründə sal,**
**zaman boyda məkan ver.**
**Min dəfə canımı al,**
**aldıqca yenə can ver.**

**Məni saxla, İlahi,**
**bir qızın gözlərində,**
**soğan, əvəlik, kahı,**
**yarpızın gözlərində.**

**Əl çatmayan budaqda,**
**sonuncu narda saxla,**
**Mismarla taxta-taxta**
**İsa tək darda saxla!**

**Bir qara, soyuq daşda,**
**zəhr elə, marda saxla!**
**Yayda, payızda, qışda,**
**şehcən baharda saxla!**

**Saxla Leylan düzündə,**
**inək, at örüşündə,**
**Saxla oğlan üzündə**
**qızın ilk öpüşündə...**

**Kimlər yox olub getmiş...**
**Məni vida çağında**
**gizlət, açarı itmiş**
**bir nənə sandığında.**

**Haqdan qurulu evin**
**namusu elə məni,**
**qonaq-qaralı evin**
**qapısı elə məni.**

**Hör məscidə, kilsəyə;**
**məni öldürmə, Allah!**
**Qaldığımı kimsəyə**
**heç vaxt bildirmə, Allah!**

**Dizimə fil tabı ver,**
**kül üzümü qat yelə.**
**Mənə yer əzabı ver**
**cənnətə düşsəm belə...**

**Yağdır təpəmə ahı**
**qızaran dan yerində,**
**məni saxla, İlahi,**
**Günün çıxan yerində!**
**Günün batan yerində!**

Ədalət 2019.- 23 may.- S.5;8.